# Azərbaycan sülh naminə çağırışlara xüsusi töhfələr verir

*Biz Azərbaycan ilə Beynəlxalq Atom Enerjisi Agentliyi arasında yaxşı tərəfdaşlıq əlaqələrinin mövcud olmasından və bir sıra birgə layihələr üzərində işlərin aparılmasından məmnunuq. Ümidvarıq ki, ölkəmizlə Beynəlxalq Atom Enerjisi Agentliyi arasında əməkdaşlıq gələcəkdə də inkişaf edəcək.*

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***



*Azərbaycan Beynəlxalq Atom Enerjisi Agentliyi üçün çox mühüm tərəfdaşdır. Biz bu ölkə ilə yüksək səviyyəli əməkdaşlıq həyata keçirir və mühüm layihələr üzrə birgə iş aparırıq.*

***Yukio AMANO***
***Beynəlxalq Atom Enerjisi Agentliyinin baş direktoru***
***Bakı 18 aprel 2018-ci il.***

***Yəqin ki, oxucular ikinci sitatın səsləndirildiyi tarixin fərqinə vardılar. Ancaq buna baxmayaraq, həmin günün milli tariximizdə nə qədər əlamətdar və əhəmiyyətli olduğunu xatırlatmaq istərdim. Həmin gün İlham Əliyev Azərbaycan Prezidenti kimi növbəti dəfə and içmişdi və cənab Yukio Amano məhz dövlət başçımızın inauqrasiyasında iştirak etmək üçün Bakıya gəlmişdi. Bu faktı Azərbaycanla Beynəlxalq Atom Enerjisi Agentliyi arasındakı əməkdaşlığın miqyası barədə təsəvvür yaratmaq üçün xatırlatdım.***

Onu da xatırladım ki, 2021-ci ilin may ayına olan məlumata görə, hazırda 173 dövlət Beynəlxalq Atom Enerjisi Agentliyinin (AEBA) üzvüdür. Fəxrlə yada salırıq ki, bu mühüm beynəlxalq təşkilata üzv olmağımız da ümummilli lider Heydər Əliyevin böyük uzaqgörənliklə işləyib hazırladığı xarici siyasət kursumuzun icrası zamanı mümkün olmuşdur.

Xatırladılmalı başqa bir məqam da odur ki, Prezident İlham Əliyev 2014-cü il martın 24-də Haaqada Beynəlxalq Atom Enerjisi Agentliyinin baş direktoru Yukio Amano ilə görüşmüşdü. Görüşdə Azərbaycan ilə Beynəlxalq Atom Enerjisi Agentliyi arasında səmərəli əməkdaşlığın qurulduğu, ölkəmizin nüvə təhlükəsizliyi sahəsində etibarlı tərəfdaş olduğu bildirilmişdi. Yukio Amano əməkdaşlığın daha da inkişaf etdirilməsi və radioaktiv tullantıların təmizlənməsi sahəsində əlaqələrin genişləndirilməsi üçün yaxşı potensialın olduğunu demiş və əlavə etmişdi ki, Azərbaycanın nüvə təhlükəsizliyi ilə bağlı keçirilən tədbirlərdə və zirvə görüşlərində fəal iştirak etməsi məmnunluq doğurur. İlham Əliyev isə nüvə təhlükəsizliyinin ölkəmiz, region və dünya üçün əhəmiyyətinə toxunaraq Ermənistanda seysmik zonada yerləşən və artıq köhnələrək müasir standartlara cavab verməyən Atom Elektrik Stansiyasının fəaliyyətinin bütün region üçün ciddi təhlükə doğurduğunu diqqətə çatdırmışdı.

Bəs həmin agentliklə əməkdaşlığımızın məhz bu gün xatırladılması nə ilə bağlıdır? Xarici İşlər Nazirliyinin Mətbuat Xidməti İdarəsinin verdiyi məlumata görə, Ceyhun Bayramov Vyanaya işgüzar səfəri çərçivəsində AEBA-nın baş direktoru Rafael Qrossi ilə görüşüb. Azərbaycan naziri "Nüvə silahının yayılmaması haqqında" müqavilənin əhəmiyyətindən bəhs edib, agentliyin bu sahədə roluna toxunub.

**(ardı 2-ci səhifədə)**

# Azərbaycan sülh naminə çağırışlara xüsusi töhfələr verir

*(əvvəli 1-ci səhifədə)*

Yayılmama və nüvə enerjisinin dinc məqsədlərlə istifadəsində AEBA-nın müvafiq sisteminin əhəmiyyətinə toxunan nazir C. Bayramov Azərbaycanın nüvə təhlükəsizliyinin qorunmasına və daha da möhkəmləndirilməsinə böyük əhəmiyyət verdiyini və bu xüsusda beynəlxalq əməkdaşlığın genişləndirilməsi istiqamətində bütün səyləri dəstəklədiyini bildirib.

Baş diplomatımız, həmçinin nüvə təhlükəsizliyi qaydaları və standartlarının işlənib hazırlanmasında agentliyin əsas rol oynadığını yüksək qiymətləndirərək, Azərbaycanın möhkəm qanunvericilik bazasına malik hərtərəfli milli ixraca nəzarət sistemi yaratdığnı qeyd edib. Azərbaycanın AEBA ilə son illər tibb sahəsində xərçənglə mübarizə, kənd təsərrüfatında pambıqçılıqda məhsuldarlığın artırılması ilə bağlı layihələr çərçivəsində əməkdaşlığından bəhs edilib. Həmçinin ətraf mühit sahəsində də əməkdaşlıqda maraqlı olduğumuz ifadə edilib. Bundan başqa, həmin görüşdə də Ermənistan tərəfindən köhnə texnologiyalı AES-in istismarında təhlükəsizlik qaydalarına riayət edilməsinə nəzarətin vacibliyi vurğulanıb.

Baş direktor Qrossi də Azərbaycanın agentlik üçün çox vacib tərəfdaş olduğunu və bir çox sahələrdə uğurlu əməkdaşlığın həyata keçirildiyini qeyd edib. Hazırda həyata keçirilən birgə əməkdaşlıq layihələrini xatırladan baş direktor, ətraf mühitin qorunması sahəsində Azərbaycanla AEBA arasında əməkdaşlıq perspektivlərinin mövcud



olduğunu bildirib.

Yada salaq ki, 1957-ci ildə “Sülh naminə Atom” təşkilatı kimi təsis edilən Atom Enerjisi üzrə Beynəlxalq Agentlik (AEBA) nüvə enerjisindən sülh məqsədləri üçün istifadə olunması sahəsində elmi və texniki əməkdaşlıq məqsədilə dünyanın hökumətlərarası forumu kimi fəaliyyət göstərir. Nizamnaməyə görə, onun başlıca məqsədləri “dünyada atom enerjisindən sülh, səhiyyə və inkişaf naminə istifadə edilməsini artırmaq və prosesi tezləşdirmək” və “onun tərəfindən, onun tələbi ilə, onun təlimatı və ya nəzarəti altında göstərilən yardımın hər hansı bir hərbi məqsədlər üçün istifadə olunması kimi halların olmamasını mümkün qədər təmin etməkdir”.

AEBA-nın bunlarla yanaşı, digər məqsədlərinə – nüvə texnologiyalarının və yüksək texnologiyaların ötürülməsinə dəstək, nüvə enerjisindən istifadə sahəsində etibarlı və təhlükəsiz beynəlxalq qaydanın yaradılmasına dəstək, nüvə materiallarının yalnız sülh yolunda istifadə edilməsinə təminatı həyata keçirmək və nüvə texnologiyalarından bu məqsədləri üçün istifadə edilməsi barədə məlumatları yaymaq daxildir.

Ulu öndər Heydər Əliyev tərəfindən 2000-ci il mayın 24-də Azərbaycanın AEBA-nın baş katibinə üzvlük ərizəsi təqdim edilmiş və Azərbaycanın AEBA-nın Şərqi Avropa qrupuna daxil olmasını xahiş etmişdir. 2000-ci il iyunun 5-dən 9-dək Vyanada keçirilən Müdirlər Şurasının iclasında Azərbaycanın xahişi təsdiq edilmiş və Baş Konfransda qəbul edilmişdir. Milli Məclisdə qəbul edilmiş 13 fevral 2001-ci il tarixli qanunla Azərbaycan Respublikası AEBA-nın statutuna qoşulmuş və bununla da təşkilatın tamhüquqlu üzvü olmuşdur.

Sonradan ölkəmiz 2009-2011-ci illər və 2018-2020-ci illər üzrə AEBA-nın Müdirlər Şurasına üzv qəbul edilmişdir. Prezident İlham Əliyevin 5 sentyabr 2007-ciil tarixli sərəncamı ilə Azərbaycan Respublikası ilə AEBA arasında əməkdaşlıq üzrə Dövlət Komissiyası təsis edilmiş, 24 aprel 2008-ci il tarixli sərəncamla isə Fövqəladə Hallar Nazirliyinin tərkibində Nüvə və Radioloji Fəaliyyətin Tənzimlənməsi üzrə Dövlət Agentliyi yaradılmışdır. Bundan başqa, Prezidentin 8 may 2014-cü il tarixli sərəncamı ilə Azərbaycan Respublikasının Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tabeliyində “Milli Nüvə Tədqiqatları Mərkəzi” Qapalı Səhmdar Cəmiyyəti təşkil olunmuşdur. Ölkəmiz həmçinin, “Nüvə materiallarının fiziki mühafizəsi haqqında” və “Nüvə terrorizmi fəaliyyətinə qarşı” beynəlxalq Konvensiyalara qoşulmuşdur.

Qeyd edək ki, 2020-2025-ci illəri əhatə edəcək “Ölkə çərçivə proqramı” sənədinin 2020-ci ildə imzalanması ilə bağlı Azərbaycan tərəfinə müraciət daxil olmuş və hazırda bu sənədin yenidən imzalanması üzərində iş aparılır.

Ümumiyyətlə, Azərbaycan hansı beynəlxalq təşkilatla əməkdaşlıq edirsə, onu etibarlı tərəfdaş və dost kimi qəbul edirlər. Biz bunu Heydər Əliyev müdrikliyinin təsdiqi və təzahürü kimi qiymətləndiririk.

***İttifaq MİRZƏBƏYLİ,***
***“Xalq qəzeti”***